BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

№2 ***Humanitar elmlər seriyası*** ***2021***

ƏDƏBİYYATŞÜNASLIQ

UOT 82 (091); 398; 801.8

YUSİF BALASAQUNLUNUN "QUTADĞU BİLİG" ƏSƏRİNDƏ TANRI VƏ TÖRƏ

Məhəmməd M.MƏMMƏDOV*

Dövrünün mütəfəkkir sənətkarı, dövlət xadimi olan Yusif Balasaqunlu "Qutadğu bilig" əsərində qədim türklərin törələrdən, Tanrıçılıqdan, həyat və düşüncə tərzindən gələn ictimai-sosial, fəlsəfi baxışlarını ifadə etmişdir. Tanrıçılıqda kainatın yaradıcısı olaraq bilinən Tanrı Türk cəmiyyətinin mənəvi gücünün tək bir qaynağıdır.

Yusif Balasaqunlu bu əsəri ilə türklərin siyasi və idarəçilik görüşlərini ortaya qoymuş, Türk dövlətinin ictimai-siyasi bünövrəsini tanıtdıra bilmişdir. Əsərdə Törənin (Qanun) əsasında ədalətin durduğu və xalqın haqqını təmsil etməsi vurğulanır. Məqalədə göstərilir ki, Törə ilahi nizam olduğu üçün Tanrı öz nizamına uyğun adama Qut // Kut (xoşbəxtlik, səadət) verir. Məqalədə qədim türklərin adət-ənənələrdən gələn hüquqi baxışları əsərdən gətirilmiş örnəklər əsasında araşdırılır.

Açar sözlər: Yusif Balasaqunlu, Tenqri, Qut/Kut, həqiqət, müdrüklük, xoşbəxtlik, ədalət, sakral

Giriş. Qədim türklər dünyanın yaradıcısı, tək və mütləq qüdrət sahibi Göy Tanrıya tapınmışlar. Tanrıçılıq dünyagörüşündə kainatın vahid yaradıcısı olaraq bilinən Tanrı türk cəmiyyətində mənəvi gücün tək qaynağı sayılmışdır. Göy Tanrı anlayışı ətrafında təşəkkül tapmş tanrıçılıqda türk xaqanı qalibiyyətdən doğan sevincini, məğlubiyyətini, göylərdən "qut"unun göndərilməsi, xaqanlıq taxtına çıxması və düşməsini Tanrının adı ilə bağlayırdı.

Türk dövlət ənənəsində Tanrıya dayanan hakimiyyət qut//kutdan ayrılmazdır. Dövlətin idarə edilməsində xaqanın verdiyi qanun və fərmanlar törəyə əsaslanır. Adət-ənənəyə əsaslanan birgəyaşayış qanunlar toplusu olan törənin əsasında ədalət dayanır. Türk düşüncəsində "qanun və nizam" mənasında işlədilən törə adət və ənənələrin dəqiq hökmlərini əks etdirir.

Türk xalqlarının möhtəşəm abidəsi sayılan "Qutadğu bilig" əsərində Yusif Xas Hacib Balasaqunlu qədim türklərin islam fəlsəfəsi işığında tanrıçılıqdan, törədən, həyat və düşüncəsindən gələn ictimai-sosial və fəlsəfi baxış-

* *Bakı Dövlət Universiteti, Filologiya fakültəsi, fil.f.d., dosent;*
mahammadmammadov@bsu.edu.az; ORCİD İD: 0000-0002-2630-2651

larını ifadə edir. Dövrünün mütəfəkkir sənətkarı olan Yusif Balasaqunlu Törənin ədalət anlayışının ilahi ədalət prinsiplərinə söykəndiyini xüsusi vurğulayır. Türk alimlərinin Yusif Balasaqunlunun "Qutadğu bilig" əsərində Tanrı və Törə mövzusu ilə bağlı dəyərli araşdırmaları olsa da, Azərbaycan folklorşünaslığında bu problemə ilk dəfə münasibət bildirilir. Məqalənin əsasında türk dövlətçilik tarixinin qüdrətli simalarından biri kimi tanınan Yusif Balasaqunlunun "Qutadğu bilig" əsərində dövlətin ictimai-siyasi və idarəçilik görüşlərində Tanrı və törənin oynadığı rolu müəyyənləşdirməkdir.

Tanrı və törə anlayışları. Qədim türklərdə Tanrı "Tenqri" şəklində olub, "gözlə görünən göy" və "Allah" mənalarını ifadə edərək ilkin ilahi başlanğıcı bildirir. Tanrıçılıq dini-mifoloji sistem kimi çox əski çağlardan Tanrı adı ətrafında təşəkkül tapmışdır. Tanrı türk din düşüncəsi tarixi boyunca bilinən və prototürklərinin etnik-mədəni tarixinin ən alt qatında belə var olan əski anlayışdır.

Türk düşüncəsinə görə dünya Tanrı nizamıdır və bu düzülüşdə nə varsa hamısı Tanrı istəyincə nizamlanmışdır. Türk araşdırıcısı Hikmət Tanyunun fikrincə, Kök Tenqri//Göy Tanrı ifadəsində Kök//Göy rəng anlamında deyil, Tanrının "ucalıq, böyüklük, ənginlik" kimi sifətlərindən biri olaraq işlənmişdir [16, 15]. Həqiqətən də, "Göy-Tanrı" adındakı "göy" tərkibi heç də sadəcə göyün rəngini deyil, onun müqəddəsliyini, ucalığını anladan Səma rənginə bürünməyi, ənginliyi, sonsuzluğu və dərinliyi, Tanrının göylərlə bağlılığını, ululuğu, ucalığı və əzəməti bildirmişdir. "Göy Tanrı" - Uca Tanrı, Ulu Tanrı deməkdir. Türk mifoloji sistemində göyün rəngini daşıyan obrazlar səmavi mənşəli və sakral varlıqlardır. Orxon-Yenisey yazılı abidələrində adı çəkilən Göy Tanrı və ya Türk Tanrısı konkret zaman və məkan strukturu olmayan uca sitayiş obyektidir.

Türk mifoloji düşüncəsində dünya tanrı nizamıdır və düzülüşdə nə varsa hamısı tanrı istəyincə nizamlanmışdır. Zaman keçdikcə, türk düşüncəsində daha çox mənəvi qüdrətin sahibi olan tanrı maddi göy üzü mənasından "ulu varlıq " anlamına qovuşur və tanrı əbədiliyi, "Qadiri mütləqliyi" özündə təcəssüm etdirir.

Türk dini-mifoloji düşüncəsinin mahiyyətində olub, onun strukturunu müəyyən edən tanrıçılıq kanonik mətnli göydən enmə kitabı, eləcə də peyğəmbəri olmayan bir dindir. Əski türklər hər şeyin üstündə Tək Tanrı iradəsinin hakim olduğuna inandıqları üçün haqqı, ədaləti qorumağı da Tanrı əmri kimi başa düşürdülər. Kainatı bir bütün şəkildə qavrayan türklərin tanrıçı dünyagörüşündə Tanrı heç bir antropomorfik özəllik daşımamışdır. Türk mifoloji düşüncəsində sonsuzluq və ölümsüzlük yalnız Tanrıya yaraşdırılırdı. Heç bir zaman şəxsləndirilməyən görklü türk Tanrısının yalnız özünə bənzəri vardır [11, 44].

Yusif Xas Hacib Balasaqunlu "Qutadğu bilig" abidəsində islam fəlsəfəsi ilə qədim türklərin törədən, Tanrıçılıqdan, həyat və düşüncə tərzindən gələn fəlsəfəsini üzvü şəkildə birləşdirmişdir. Yusif Balasaqunlu bu əsəri ilə "türklərin mənəvi tərifini, siyasi və idarəçilik görüşlərini ortaya qoymaqla, Türk

dövlətinin ictimai-siyasi bünövrəsini tanıtmağı bacarmışdır" [13, 4]. "Qutadğu bilig" əsərində insan konsepsiyası, ağıl anlayışı, hikmət fəlsəfəsi Kut // Qut və Törə anlayışlarının tanrıçılıq işığında təhlili ilə üzə çıxır. Qutun mənşəcə Tanrıdan gəlməsi bu fəlsəfi əsərdə dəfələrlə vurğulanır.

Tanrıçılıq ilahi qanunlarıyla aləmləri nizama salan Yaradan Ulu Tanrıya ruhu təmiz duyğularla dolu bir cəmiyyətin dini inanış sistemidir. Yaradılışın nizamını davamlı olaraq saxlayan türk tanrısı xaqanları və bəyləri yüksəltməsi üçün deyil, məhz türk millətini yüksəltsinlər deyə xaqanlara "kut" göndərirdi [7, 539].

Türk düşüncəsində Tanrıya üsyan etmək yoxdur, çünki türkün yaradılışın qayəsi, xəlq olunmağın mənası Tanrıya xidmətdir. Tanrıya qulluq göstərib Tanrı yolunda olmaqdır. Həyat və artım onun əlindədir, yaxşılıq edən və hər şeyi biləndir [6, 216-217].

Abidədən aydın olur ki, əski türk dövlətlərində Tanrı tərəfindən idarə etmə haqqı verilən xaqan vəzifələrini yerinə yetirə bildiyi və Tanrı iradəsinə uyğun hərəkət edə bildiyi müddətdə taxtında qalır, əgər buna müvəffəq olmurdusa, hakimiyyətdən devrilərdi. Çünki Tanrı bağışladığı, verdiyi hökmranlıq haqqını ona layiq olmayanlardan geri ala bilən ilahi varlıqdır. Deməli, kut dövlət həyatının təməli, hökmdar olmağı və hakimiyyətdə qalmağa kömək edən bir Tanrı iradəsidir. Türk dövlət ənənəsində ədalət kutun şüarı və xalqın dövlətə bağlılığını saxlayan əsas xüsusiyyətlərdən biridir: "Bəyliyin təməli ədalətdir, Ədalət yolu bəyliyin əsasıdır"[1, 78-79, b.: 821]. Hökmdarın mütləq hakimiyyətinə dayanan dövlət sistemində ədalət, xaqanın xalqa, qüvvətlinin zəifə qarşı zülmünü və sui-istifadəsinin qarşısını almaq mənasındadır [2, 129-130].

"Qutadğu bilig" əsərində xaqan xalq və dövləti idarəetmədə birinci məqsədinin ədalət olduğunu vurğulayaraq, ölkəsində uzun zaman hökmdarlıq etmək istəyən xaqanın qanunu bərabər tətbiq etməli və xalqı qorumaq məcburiyyətində olduğunu söyləmişdir. Müəllif qanun və qaydaların xalqla bərabər, xaqana da aid olduğuna işarə etmişdir. Vəzir Öydülmüş xaqanın ölkəsini ədalət və adil qanunlarla yaxşı idarə etdiyini, xalqın sülh və əmin–amanlıq içində yaşadığını belə anladır: "...Qanun su kimidir, zülmsə atəş kimi, // Sən saf su axıtdın , od söndü [1, 218, b.: 3107].

Əski türk inanışında xaqan Tanrıya bənzədilməkdə və ona dövləti idarə etmə haqqının Tanrı tərəfindən verildiyinə inanılmaqdadır. Göy türk abidələrində də Xaqan Tanrıya bənzədilmiş, Tanrı tərəfindən göndərildiyi ifadə edilmişdir. Həmin yazılarda xaqan Tanrı tərəfindən kut və qismətlə təchiz olunduğundan, ona verilən taxta çıxa bilməkdə və tapşırıqları yerinə yetirməkdə məsuliyyət daşıyır [13, 28]. Hər şeyin Tanrının gücü ilə olması inancı Çingiz xan tətəfindən də mənimsənilmişdir. "Moğolların gizli tarixi" əsərində Çingiz xanın "Mengü (Əbədi-M.M) Tanrının verdiyi güclə bütün milləti idarəm altına aldım" deyilir [2, 138-139]. Türklər dövləti verən Tanrının millət və kağanın statusunu təyin etdiyinə inanırlardı. "Oğuz kağan" dastanında Uluğ Türük qızıl yay və üç gümüş oxla bağlı röyanı Oğuz kağana belə anladır: "Göy Tanrı mənə yuxumda bildirdi. Qoy yuxum çin olsun. Aldığın torpağı sənin uruğuna versin"

[4, 136]. Kağanın siyasi uğuru "kutum, ülügüm var olduğu için" əsasına söykənirdi. Yusif Xas Hacib abidədə hökmdara belə demişdir: " Bu bəyliyi sən zor gücünə almadın, // Onu Tanrı öz fəzli ilə sənə bağışlayıb. // O, lütf edərək bu bəyliyi sənə verdi, Ey geniş bilikli, buna şükr et. [1, 362, b.: 5469-5470]; "...Bəylər bəyliklərini Allahdan alır, Xalq yaxşı olsa, bəy də yaxşı olur" [1, 391, b.: 5947] və ya "Tanrı bu bəylik işini kimə versə, Ona müvafiq ağıl və könül də verir // Tanrı hər kimi bəy tək yaratmaq istəsə, Ona müvafiq ağıl, qolqanad da verir[1, 151, b.: 1933-1934]. Nizamülmülkə görə, hökmdar qüdrətini Tanrıdan alır və Tanrı adına hökmranlıq edərdi. Tanrı hər əsrdə və zamanda xalq arasında hökmdarlıq vəzifələri və qabiliyyətlərilə təriflənməyə layiq olan birini seçər, dünya işlərini və hakimiyyəti altında toplumun sülh və əmin-amanlıq içində yaşamalarını ona həvalə edərdi [2, 138-139]. Əski türk inanışında hökmdara idarə etmə haqqının Tanrı tərəfindən verilməsi, əldə etdiyi bütün uğurlarının onu qut//kut ilə təchiz edən Tanrının bir lütfi olaraq göndərilməsi göstərilir

İbrahim Qəfəsoğlunun fikrincə, türklər "Törə" ifadəsi ilə ictimai həyatı nizamlayan məcburi qaydaları ifadə etmiş, "qanun və nizam" mənasında işlətmişlər. "Törə", türk adət və ənənələrinin dəqiq hökmləri birliyi idi. [13, 22]. Mahmud Kaşğari "Törə" sözünün qarşılığı olaraq "ər-rəsm va-l-insaf", yəni "görənək (törə) və insaf" sözlərini işlətmişdir [10, IIIc., 221]. Törə ifadəsinin tarixinə gəldikdə təqribən 1600 il əvvələ, Asya Hun imperatorluğu dövrünə gedib çıxır. Törənin olduğu yerdə kut da vardır. "Divanü lüğat-it-türk" abidəsində "Zor (güc-M.M.) qapıdan girərsə, törə bacadan çıxar" [10, III c.,120; 9, II c., 18], "El qalır, törə qalmaz" [10,III c., 221; 9. II c., 25] kimi atalar sözlərinə tez-tez rast gəlirik. Yusif Xas Hacib törə ilə bağlı gəldiyi qənaətdən aydın olur ki, qanun, nizam, adət bəylərdən gəlmədir. Türk dövlət ənənəsində törə Tanrıya dayanan hakimiyyətdən, yəni qutdan ayrılmazdır. Türk dövlətlərinin varlığı törənin varlığı ilə sıx bağlıdır, çünki qut//kut işığını törədən almaqdadır və zuhuruna görə törəyə borcludur [3, 7]. Türk düşüncəsində törəsiz bir dövlət və ya cəmiyyət olmayacağı göstərilmiş, "il" və "törə" kəlimələri yan-yana işlədilmişdir. [13, 22]. Əski türklərdə idarənin qanunsuz və ya hökmdarın iradəsi ilə bağlı olması qeyd edilməmişdir. Xaqanların əmr və fərmanları (yarlıg-M.M.), hakimlərin qərarları həmişə törəyə görə olmuş, ona əsaslanmışdır. İşbara kağanın Cin hökmdarına yazdığı məktubda "Bizim adət və ənənələrimizi dəyişdirməyə mənim gücüm çatmaz" ifadəsi dediklərimizi təsdiqləyir [15, 223].

Yusif Balasaqunlu törə qanunlarına uymayanı xəbərdarlıq edirdi: "Əgər günah işləsən, Tanrıdan əfv dilə, Hər gün dönə-dönə tövbə et[1, 351, b.: 5289]. Hacibə görə, hökmdarın əsas vəzifələrindən biri xalqı idarə etməkdir və qanun (törə-M.M.) xalqı idarə etmədə ən yaxşı vasitədir (alətdir). Törə ilə xalqı idarə etmənin əsası ədalətdir. Hakimiyyət qanun və nizamı təmsil edən törədən ayrılmaz, yəni o, törə və qutdan ibarətdir. "Qutadğu bilig" abidəsində verilmiş "Bu Gündoğdu dediyin başdan-başa qanundur, // Bu Aydoldu dediyin səadətdir"[1,

45, b.: 355], “ ...Bəylik qanun ilə qüdrətli olar” [1, 351, b.: 5285], və ya “Hər elin bağı və kilidi iki şeydir: “ Biri ehtiyat, biri qanun “- bunlar əsasdır” [1, 155, b.: 2015] kimi beytlər törənin dövlətdə əsas rol oynadığını göstərir.

Dövlətin vəzifəsi hüquqa əsaslanmadır, bunun üçün yeri gəldikdə güc də tətbiq edilməlidir: ”Bu ikisi kar etməsə, biliyi qırağa qoy, Qılıncı al əlinə. // Hakimlər, alimlər, xalqın başçıları, Biliksizin işini qılıncla həll etmişlər” [1, 39, b.: 222-223], və ya “... Elini və xalqını qanunla idarə edə bilər” [1, 43, b.: 286]. Deməli, dövlət ilə birlikdə Törə də cəmiyyətdə insanları haqq və hürriyyətləri ilə əmin-amanlığa qovuşdurmaqdadır. Törə dövlət ilə bərabər sosial həyatı təşkil edir, bu özəlliyi ilə toplumun əsası qəbul edilir. Türk dövlət düşüncəsində “Hər şey qalxsa, törə qalxmaz” deyilirdi [15, 222]. Törənin nöqsansız işləməsi türk cəmiyyətinin ahəngini saxlayırdısa, bunun əksi dövlətin dağılmasına səbəb olurdu. “Qutadğu bilig” abidəsində törənin dəyişməyən əsas prinsipləri içərisində “Könilik”(ədalət), “Uzluk” (yaxşılıq, faydalılıq), “Tüzlük” (bərabərlik) və “Kişilik” (insanlıq, universallıq) olduğu göstərilir. Xaqan Gündoğdu “Törə” haqqında belə demişdir: “...Alim mənim təbiətimi Günəşə bənzədərək bu adı verdi. // Günəşə bax, kiçilməz, daim eyni boyda olar, Parlaqlığı da eyni şəkildə güclüdür. // Mənim xasiyyətim də ona bənzəyir, Doğruluqla doludur, əsla azalmır”[1, 79, b.: 824-828]. Yusif Balasaqunlu abidənin başqa bir yerində qanunu belə təsvir etmişdir: “O gümüş bir taxt üstündə oturmuşdu, Bu taxt üç ayrı ayaq üzərində dururdu. // Əlində böyük bir bıçaq tutmuşdu, Solunda acı ot, sağında şəkər vardı... Şəkər zülmə uğrayan adam üçündür, O mənim qapıma gələr ədalət tapar// Bu acı otu isə o kişilər dadar ki, Özü zorbadır, ədalətdən qaçandır...” [1, 76-79, b.: 771-822]. Bu ifadələr qanun anlayışının bütün insanlığa xitab edildiyini göstərməkdədir. Türk törəsi ədalət anlayışının nəticəsi olaraq bütün insanlara bərabər şəkildə tətbiq olunur.

Törə ehsanla, qut//kut xidmətlə bilinməkdədir. Tanrının verdiyi qutun törəyə xidmətlə qazanılması törədəki Tanrı nizamı mənasını dəstəkləməkdədir: “... Xidmət həmişə bəxt qapısını açar” [1, 64, b.: 596]. Törənin təbiətini Yusif Xas Hacib abidədə belə xarakterizə edir: “...Əməli doğru, feli-rəftarı düz idi, //Sözü bütöv, gözü, könlü tox idi” [1, 50, b.: 407] və ya “Törə günəş kimidir, kiçilməz, daim eyni boyda olar, parlaqlığı da eyni şəkildə güclüdür. Doğruluqla doludur, əsla azalmır... Hərəkətim və sözüm bütün xalq üçün eynidir. Hər şeyi işıqlandırar, öz nuru azalmaz. Hamı törədən öz payını alır. Törə sabit olduğu üçün təməli də möhkəmdir. Törə kirli və təmizə fərq qoymadan hər şeyi işıqlandırar, nuru azalmaz” [1, 79-80, b.: 824-835]. Törə bilikli, ağıllı və oyanıqdır: “Pis üçün od idi, yağı üçün bəla idi” [1, 50, b.: 408]. Törənin hökmləri şəxsi meyllərdən uzaqdır, onun himməti bütün bəşəriyyət üçün nəzərdə tutulur. Gün və ay kimi parlayaraq dünyanı işıqlandırar [1, 51, b.: 415]. Bəy yaxşı olsa, qanun (Törə) ilə hərəkət etsə, xalq xoşbəxt olar, yaxşı dövran sürər. Abidədə deyildiyi kimi “Zülm yanar oddur, yaxınlaşanı yandırar // Qanun-sudur, axsa nemət bitirər” [1, 156, b.: 2032].

Törənin xoşlamadığı bəzi yasaqlar vardır: ”Mənim tablamadığım şeylər-

dən biri yalandır, Bundan sonra zülmkarlar gəlir, // Sonra hərislər və bədəməllər, Tələskənlər və acgözlər gəlir. // Hər işdə qəzəb göstərənlər, İçki düşkünləri və oğrular, quldurlar // Bu cürə kişilər yaramaz mənə, Açıqca söylədim bunları sənə. // Sən mənim xoşuma gəlmək istəsən, Bu şeylərdən uzaq ol, ey adil insan" [1, 81, b.: 848-852].

Bu yasaqlara əməl edən insana törənin verdiyi dəyər böyüməkdə, göstərilən etibar və hörməti artmaqdadır [1, 81, b.: 853]. Can çıxan zaman insan iki günahdan - başqasının malını alma, qan tökmə üzündən inildəyir, əzab çəkir. Çoxsaylı deyimlərlə qınanılan haram Odqurmuşun xaqana verdiyi öyüdlər içərisində xüsusi yer tutur: "Harama əl uzatma, özünü gözlə, // Bil ki, haram tikə könül qaraldır" [1, 354, b.: 5347]. Müəllif haram ilə könül arasında qurulan bağlantı ilə maddiyyat və mənəviyyat arasındakı həqiqət bağını nəzərdə tutur. Gözəl qanun vermiş bəylərdən biri: "Pisə qarşı ən yaxşı çarə qırmanc və zindandır" [1, 84, b.: 893]. Yusif Xas Hacib Balasaqunlu törənin yasaq hesab etdiyi fəna işlər haqqında danışarkən "Haram şey yemə, zülm etmə, // İnsan qanı tökmə, düşmənçilik güdmə, kin bəsləmə, şərab içmə, fəsaddan uzaq dur",- deyir [1, 118, b.: 1433]. Müəllif qeyd edir ki, "Bədən arzusuna həris olan adam nəfsinin əsiridir // Əsir olma, olsan da özünü qurtarmağa çalış"[1, 118, b.: 1438] və ya "Həmişə etibarlı qalmaq istəsən// Heç vaxt fəsada uyma... Kasıb deyil, varlı olmaq istəsən. Heç vaxt zina etməməyə çalış" [1, 297, b.: 4409-4410]. Aydoldu oğlu Öydülmüşə bəyan etdiyi vəsiyyətlərinin içində "Pis yoldaşa yaxınlaşma, sənə zərər gətirər. Pislik ilandır, çalış səni vurmasın // İkiüzlü ərə sözünü söyləmə, sirr vermə, Sözün yayılar, sirrin faş olar. // Dedi-qoduçuları evinə yaxın buraxma, Görüb-bildiklərini bütün elə yayarlar" fikrini xüsusi vurğulayır[1, 111, b.: 1297-1299].

Törənin xeyirli, müsbıt tövsiyələrinə gəlincə, möhtəşəm abidədə deyilir: "Kut kimi Tanrı da təmizliyi sevir, Təmizliklə insan yaxşı ad qazanar" [1, 203, b.: 2856] və ya "İnsanlara məziyyətləri, hünəri nisbətində hörmət və sayğı göstərmək lazımdır"[1, 78, b.: 798].

Abidədə Yusif Balasaqunlu mühüm dövlət işləri görərkən tələsmədən, diqqətlə icra etməyi məsləhət görür: "Yanlışlıqların başı tələsiklikdir, Yaxşı iş tələsmədən görülən işlərdir" [1, 78, b.: 798] və ya "Adam bütün işlərini hesabla görər, // İli, ayı, günü, vaxtı hesabla təyin edər; Hesabın adı hesablı olmaqdan hesab olub, // Diqqət etsən, hesab çox hesablı bir işdir" [1, 167, b.: 2220-2221].

Abidədə böyük ədib və dövlət xadimi tərəfindən insanın öz mənfəətini deyil, xalqın mənfəətinin əsas götürülməsinin zəruri olduğu xüsisi vurğulanır: "Gümüş paylamaq comərdlik deyil, Comərd xalq üçün canını fəda edər" [1, 403, b.: 6106] və ya "Bir gün hamının yaxşı olmasını istəsən, Birinci özün yaxşı ol, ey ölkə hakimi // Bütün bulanıqları durultmaq istəsən, Öz ruhunu təmizlə, onda xalq da durular"[1, 346, b.: 5200-5201].

Gündoğdu xaqan Öydülmüşə belə demiş: "...Sənə bir adamın əməyi keçibsə, Onu unutma, ölü kimi hərəkətsiz durma. // Ey əsil insan, insanlıqdan əl çəkmə, İnsanlara həmişə insanlıqla rəftar et. // Kimin sənə bir az əməyi

keçsə, Sən ona ondan da artığını elə..."[1, 128-129, b.:1195-1198].

Abidədən aydın olur ki, Gündoğdu, harada ağıllı və bilikli insan varsa, yanına çağırar, özünə yaxın tutar, bilikli adamları ucaldardı, işini biliklə nizamlayardı. Çünki törə elm və hikmət ilə bilinir, tanınırdı [1, 50, b.:405; 416]. Törənin xitab etdiyi zümrə ağıllı insanlardır. Yusif Balasaqunlu bilik və idrakın faydaları haqqında danışarkən alim sözünə istinadən belə deyir: "Bu dörd şeyin azına az demə, Hakim sözüdür, onu yaxşıca dinlə: " Bu dörd şeydən biri od, biri yağıdır, Üçüncüsü həyatın duzağı olan xəstəlikdir. // Nəhayət, bilikdir, bunlardan biri, // Bu dörd şeyi ucuz tutma, onlar çox əhəmiyyətlidir" [1, 44, b.:306-308].

Ağılı təmsil edən Öydülmüş Törənin baş məsləhətçisi sifəti ilə "Hər işi bilərək, gənəşərək görməli, Gənəşməyən adam sonra peşman olar. Eşit gör nə deyir xəbər gətirən peyğəmbər: "Məsləhət hər işin dərmanıdır". // Yaxşı adam ilə məsləhət etməli, Hər işi gənəşməklə həll etməli. // Adam işini gənəşib görər, Gənəşməyən adam peşman olar... İnsan özü öz işini yaxşı bilməz, Başqası ilə gənəşmək xeyirli olar.// Gənəşən insanın biliyi artar, Gənəşməyə bilik də qatılsa, o iş düzələr.// Gənəşən insan nə deyir, eşit, İşi məsləhət ilə yoluna qoyarlar: Hər bir işi başqasına gənəş, Gənəşməyən adamdan uzaq dur.// Girişmək istədiyin işi gənəş, Diləyinə məsləhət ilə yetiş",- deyir [1, 373-374, b.: 5650-5660].

Öydülmüşün Odqurmuşa cavabında müəllif, mənfəəti olan insanla məsləhət etməyin insana xeyir gətirmədiyini, işdə xeyri olmayan adama gənəşməyi, ancaq yenə də işi könül istəyincə görmək fikrini abidədə israrla bildirir [1, 242, b.: 3492-3495]. Öydülmüşün fikrincə, "İşi ağıllı adamlar bacararlar, Ağılsızları işdən uzaq tutmaq gərəkdir" [1, 154, b.: 1990].

Türklər göy üzünü yerdən üstün tuturdular. Yaradılışda öncə göylərin xəlq olunduğu inancındaydılar. Yer üzündəki tərəflərdən şərq qərbdən, cənub şimaldan üstün hesab edilirdi. Dövlət təşkilatında şərq və cənub sağ, qərb və şimal sol tərəf adlandırılmışdır, Dövlət təşkilatında mühüm yer tutan, dövlətin sahibi sayılan Bozoklar, şərq və cənubun hakimi idilər [5,202-211]. Onlara tabe sayılan Üçoklara isə qərb və şimal verilmişdir. Həmin qaynaqlarda şərq və cənub gündüzü, qərb və şimal gecəni təmsil edirdi. Şərq, gündüz, sağ, yay, Bozoklar və dövlətdəki mərkəzi səlahiyyəti bir tərəfi; qərb, ay(gecə), sol, ok, Üçoklar və yabğuluk isə digər tərəfi təmsil edirdi.

Əski türk sosial həyatında bir-birini tamamlayan, dixatomik iki ana qanaddan meydana gələn bu quruluş "Qutadğu bilig" abidəsində də özünü göstərməkdədir. Öydülmüşün anlatdığı kimi "ağıl sağdan gedər, onun solu yoxdur, O, doğru-dürüstdür, onun hiyləsi yoxdur" [1, 145, b.: 1863]. Qutu təmsil edən Aydoldu da eyni qənaətdədir:"Yolun sağı olsa, işin düzəldi, Sola olsa, inləyərək başını yerə çal" [1, 116, b.: 1392]. Eyni vəziyyəti törəni təmsil edən Gündoğduda da görməkdəyik: "...Solunda acı ot, sağında şəkər vardı... Şəkər zülmə uğrayan adam üçündür, O mənim qapımda ədalət tapar // Acı ot isə ədalətdən qaçanlar üçündür...Törənin var olma səbəbi ədalətdir, ədalət yolu bəyliyin əsasıdır [1, 76;79, b.: 772; 812-816]. Törənin məntiqinə görə,

“Yaxşılıq sağdırsa, pislik də soldur, Solda cəhənnəm var, sağdasa cənnət” [1, 86, b.: 917] və ya “Sağ əlin qılınc tutub vuruşsa, Sol əlin qoy mal paylasın”[1, 158, b.: 2069]

Aydoldu oğlu Oydülmüşə vəsiyyət edərkən belə deyir: “Könlünü və dilini doğru tut, Tanrıya tapın, Qafil olma, sabahkı işini bu gün düşün. // Bütün yaxşılığı, pisliyi Tanrı hökmü bil, Tanrıya inan və ona qulluq et...Onun bütün əmrlərinə itaət elə, Tanrı səni bu gün də, sabah da əziz tutar” [1, 110, b.: 1278-1281] və ya “Tanrı kimə həya və göz suyu vermişsə, Ona dövlət və üz suyu da vermişdir” [1, 155, b.: 2007]. Bir türk atalar sözündə deyildiyi kimi” Əgər yaxşılıq ananın ağ südü ilə insan ruhuna keçsə, O ölənə qədər doğru yoldan çıxmaz”. // İnsanın ruhuna işləmiş əxlaq, Ancaq ölümlə pozular” [1, 83, b.: 881-882]. Töreni təmsil edən Gündoğdu “Ana qarnında yaranan tərbiyə, Ancaq qara yer altında insanı tərk edər, ey müdrik insan” fikrini əsaslı sayır [1, 83, b.: 883].

Bəşəriyyəti əmin-amanlığa və həqiqətə qovuşdurmaq üçün törədə ədalət və insanlara bərabər davranmaq şərtinin axtarılması təbiidir. Ədalət Törənin başlıca və əsas prinsipidir. Törənin başlıca qaydaları aşağıdakılardır: “Bəylik yaxşı şeydir, qanun ondan artıqdır, Gərək onu düzgün tətbiq edəsən” [1, 53, b.: 454]. Türk düşüncəsində dövlətin təməli ədalət üzərində qurulur. “Qutadğu bilig”də deyildiyi kimi “Bir bəyliyin təməli doğruluqdur, Bəylər doğru olsa, dünya aram tapar...// Bəyliyin təməli ədalətdir, Ədalət yolu bəyliyin əsasdır” [1, 79, b.: 819; 821]. Aləmə əmin-amanlıq və nizam gətirməyə cavabdeh olan Türk dövləti ədalət təməli üzərində bərqərar olur.

Törə günəşi parlaqlığını, gücünü yalnız ədalətdən alır. Müəllif bildirir ki, “Səadətin (Qutda-M.M.) yüksəlməsi üçün insana doğruluq lazımdır, İnsanlıq doğruluğun adıdır...” [1, 80, b.: 865]. Törə ədalət saxlayan bir sistemdir, ədalət isə Tanrı əmridir. Töreni təmsil edən Gündoğdunun söylədiyi “Mən işləri doğruluqla həll edirəm, İnsanları bəy və qul olaraq ayırmıram” ifadəsində türk ədalət sisteminin insanın arzularına cavab verilməkdədir [1, 78, b.: 809]. Törə sosial həyatda ədalət və ləyaqət fərqindən asılı olmayaraq tətbiq olunduğunu dilə gətirməkdədir. Ləyaqət insanı qiymətləndirən, onun keyfiyyətini müəyyənləşdirən bir ifadə kimi işlədilmişdir. Bilgi, ağıl, əxlaq ləyaqətlə mütənasibdir. İrfani baxımdan ədalət insanı bütün diləklərinə qovuşduran açardır. Ədalət tətbiq olunur və insan adil olursa Tanrının sevgisini qazanır.

Tanrı, kainat, bəşəriyyət və törə münasibətlərini açıq-aydın əks etdirən bu örnəklərdən göründüyü kimi törənin ədalət anlayışı İlahi ədalət prinsiplərinə söykənir [3, 136]. Zülmə məruz qalan hər kəsin hüququ Törə vasitəsilə qorunur, haqqı bərpa edilir, haqqına qovuşur. Törə zalımlara, ədalətdən qaçanlara ədaləti daddırmaq gücündədir: “Mənim qaşım çatmağım və qəzəbim, Qaşqabağım yanıma gələn zalımlar üçündür” [1, 79, b.: 816] və ya “Zülm yanar oddur, yaxınlaşanı yandırar, Qanun – sudur, axsa nemət bitirər”[2, 156, b.: 2032].

Gündoğdu xaqan Aydolduya ədalətin vəsflərinin necə olduğunu bəyan edərkən “İstər oğlum olsun, istərsə yaxın, ya uzaq, İstər yolçu olsun, istərsə

qonaq, // Qanun qarşısında hamısı birdir, Hökm verəndə heç biri məni fərqli görməz" [1, 79, b.: 817-818]. Öydülmüş xaqana 3 şeyin zülmə səbəb olduğunu belə anladır: "...Biri bəyin etinasızlığıdır, müsibət gətirir, // İkinci - xalqın başçısının zəifliyi, Üçüncü – xalqın bağrını yeyən tamahkarlıqdır"[1, 219, b.: 3109-3110]. Təbii ki, zülmün ortadan qaldırılması onu doğuran səbəblərin aradan qaldırılması ilə mümkündür. Bunun üçün abidədə deyildiyi kimi dünyanı nizama gətirmək gərəklidir: "Qanunu düz tətbiq etdin, dünya bəzəndi, Eldə kimsənin gözünə zülm dəymir" [1, 219, b.: 3108].

Bəyliyin təməli ədalətdir, doğruluq olan yerdə zülmün mövcudluğu qeyri-mümkündür. Gecikən ədalət zülmün pərdəsinə bürünə bilər. Məhz buna görə Törə işlərin dərhal yerinə yetirilməsini və haqq arayanın haqqının dərhal verilməsini əmr edər.

Türk dövlət həyatında bəylik, xaqanlıq Tanrı lütfü bilinmişdir: "Ey dövlətli hökmdar, Tanrı sənə səadət verdi" [1, 31, b.:109] və ya ağılı təmsil edən Öydülmüş xaqana ölkəni idarə etməyin qaydasını bəyan edərkən deyir: "Bu bəyliyi sən zor gücünə almadın, Onu Tanrı öz fəzli olə sənə bağışlayıb // O, lütf edərək bu bəyliyi sənə verdi, Ey geniş bilikli, buna şükr et" [1, 362, b.:5469-5470] və ya "Tanrı bu bəylik işini kimə verərsə, Ona müvafiq ağıl və könül də verir. // Tanrı hər kimi bəy tək yaratmaq istəsə, Ona müvafiq ağıl, qol-qanad da verir. // Bu bəylik işi bəylərin işidir, Bəylərin işini bəy olan bilər" [1, 151, b.:1933-1935].

Öydülmüş xaqana cavabında belə deyir: "Tanrı kimə versə bu xoşxasiyyəti, Bu xoşxasiyyətlə yaxşı yolu qismət etsə, // Bu dünya hər cür nemətlə onun olar, İstəsə özü yeyər, istəsə paylayar"[1, 153, b.: 1978-1979]. Abidədə Odqurmuşun dilindən deylən ifadədə də həmin fikir səslənir: "Tanrı səni doğruluq (ədalət-M.M.) üçün bu vəzifəyə gətirdi, Doğru ol və doğruluqla yaşa"[1, 346, b.: 5195]. Tanrı tərəfindən kutu göndərildikdən sonra o, Törəyi-ədaləti tətbiq etməyə cavabdehdir. Abidədə müəllif "Xaqan ölkənin bəyi, xalqın böyüyüdür, Ona hər cür hörmət etmək lazımdır" fikrini xüsusi vurğulayır [1, 333, b.: 4995]. "Qutadğu bilig" abidəsində dövlət nizamı, el qurmaq qutla bağlıdır: "Xalq qurtuldu, əziyyət qurtardı, Quzu ilə qurd birlikdə yaşadı. // Elin nizamı artdı, qanunu möhkəmləndi, Elikin dövləti gündən-günə artdı" [1, 94-95, b.: 1039-1041].

Bəylik törənin tətbiq olunması həyata keçirilməsi üçün yaradılmışdır, Tanrı ilahi nizamın hökm sürməsi üçün bəylik verir. Təbii ki, bu nizama bəyin riayət və əməl etməsi əsas şərtdir. Aydoldunun Gündoğduya "Sən hər vaxt Törəyi ədalətlə tətbiq et; bəylik Törə ilə ayaqda durur" verdiyi cavabında öz əksini tapan hikmət həmin şərti xatırlatmaqdadır [3, 139]. Xaqanın "Bəyliyə layiq bir bəy necə olmalıdır?" sualına hikmətin rəmzi olan Öydülmüş belə cavab verir: "Ey hakim, uzun zaman hökm etmək istəsən, Qanuna əməl etməli, xalqı qorumalısan. // Qanun ilə el genişlənər, dünya nizama düşər, Zülm ilə ölkə kiçilər, dünya qarışar" [1, 156, b.: 2033-2034] və ya "...Bunlardan biri xalq üçün yaxşı qanun, Digəri isə xidmətçilərə verilən gümüşdür. // Xalq qanun

sayəsində sevinc içində yaşamalı, Pulu görən xidmətçilərin üzü gülməlidir" [1, 156, b.: 2133-2134].

"Qutadğu bilig" əsərində deyildiyi kimi xaqanlıq, dünya törə ilə hüzur tapır, xaqanın adı törə ilə yüksəlir, yəni "Dünya dinc̈əldi, qayda-qanun bərqərar oldu, O öz adını qanunla yüksəltdi" [1, 31, b.: 103]. Abidədə müəllif bildirir ki, "Dünya hakiminə min bir fəzilət lazımdır, O, bu fəzilətlərlə dünyanı idarə edir" [1, 213, b.: 3009] və ya "Bu dünyanı tutmaq üçün min cür hünər lazımdır, Bu qulanı basmaq üçün aslan olmaq lazımdır.// Fatehə min-min ərdəm lazımdır ki, Onunla el-gün tutsun, dumanı dağıtsın"[1, 43, b.: 283-284].

Törəyi, yəni qanunu xalqa adil və düzgün tətbiq edən bəy xalq tərəfindən sevilir və hörmətlə yad edilir. Hikməti təmsil edən Odqurmuş töräni, yəni qanunu rəmzləşdirən Gündoğduya öyüd verərkən belə deyir: "Yoxsullara, dullara, yetimlərə görüm-baxım elə, Onları qorumaq ədalətin tətbiqi deməkdir" [1, 352, b.: 5302].

Öydülmüş bəylərə vəzirlik edə biləcək adamın necə olmasını bəyan edərkən "Qanun adamı hər yerdə yuxarı başa keçirər" deyir. Deməli, Törə-qanun, ictimai həyatda ona ciddi əməl edildiyi təqdirdə insanı ən yüksək vəzifələrə yüksəldən prinsipləri daşımaqdadır: "İnsan üsul bilsə, yuxarı başa keçər" [1, 309, b.: 4604).

Bəyin yaxşı olması Töräni ədalətlə idarə etməsi xalq üçün qut mahiyyəti daşıyırdı. "Bəy xalq üçün səadətdir, onu xoşbəxt etməlidir, Xoşbəxt olmaq üçün də qarın doymalıdır" [1, 355, b.: 5355]. Öydülmüşə görə, xaqan cəmiyyətin iqtisadi, hüquqi və qoruma kimi əsas hüquqlarını layiqincə yerinə yetirə bilirsə, quta qovuşur. Xaqan öz mənfəətini düşünməməli, qövmün faydasını ön planda tutmalıdır. Çünki bəyin qazancı tayfanın mənfəətinin içərisindədir: "Bəy yaxşı, yolu isə doğrudursa, Qul o yolla daha rahat gedəcək" [1, 161, b.: 2132)]; "Əgər yaxşı olsa elin başçısı, Yaxşı olacaqdır onun işçisi.// Əgər bəylər yaxşı olsalar, Xalqı varlanar, dünya düzələr" [1, 84, b.: 894-895] və ya "Xalqın varlığı bəyin varlığıdır, İstər onu istə, istər də bunu" [1, 366, b.: 5545]. Odqurmuşun xaqana öyüd verərkən dediyi "Ey bəy, gücün yetən qədər qanunu tətbiq et, Xalqın haqqını verməyə çalış.// Əgər günah işləsən, Tanrıdan əfv dilə, Hər gün dönə-dönə tövbə et" ifadəsində Tanrı tərəfindən qutu // kutu göndərilən xaqanın yeganə amalının cəmiyyətə qulluq etməsi fikri durur [1, 351, b.: 5288-5289].

Nəticə. Yusif Balasaqunlunun "Qutadğu bilig" abidəsində hökmdara idarə etmə haqqının Tanrı tərəfindən verilməsi, əldə etdiyi bütün uğurlarının onu qut//kut ilə təchiz edən Tanrının bir lütfü olaraq göndərilməsi vurğulanır. Türk düşüncəsində törəsiz bir dövlətin olmayacağı "il" və "törə" sözlərinin yan-yana işlədilməsi ilə təsdiqlənir. Türk dövlət həyatında bəylik, xaqanlıq Tanrı lütfü bilinir. Tanrı tərəfindən xaqanlara kut//qut göndərildikdən sonra o, törəyi, ədaləti qorumağa cavabdehdir. Abidədə deyildiyi kimi xaqanlıq Törə, yəni adət-ənənəyə söykənən qanunlarla hüzur tapır. Törənin xeyirli, müsbət tövsiyələri ilə yanaşı, xoşlamadığı yasaqlar da abidədə açıqlanır.

Azərbaycan folklorşünaslığında Yusif Balasaqunlunun “Qutadğu bilig” əsərində Tanrı və törə problemi ilk dəfə araşdırılır və elmi yenilikdir. Araşdırmanın nəticələri türk-islam tarixi, tanrıçılıq dünyagörüşü, türkün siyasi və idarəçilik görüşləri, ictimai və fəlsəfi baxışlarını öyrənməkdə yardımçı ola bilər.

ƏDƏBİYYAT

1. Balasaqunlu Y. Qutadğu bilig. Bakı: Avrasiya Press, 2006, 439 s.
2. Balcı C. Türk devlet töresi. İstanbul: Bilgeoğuz, 2018, 277s:
3. Başer S. Kutadgu Bilig'de kut ve töre. İstanbul: İrfan Yayıncılık, 2015, 174 s.
4. Bayat F. Oğuz epik ənənəsi və “Oğuz kağan” dastanı. Bakı: Sabah, 1993, 194 s.
5. Bayat F. Oğuz destan dünyası. Oğuznamelerin tarihi, mitolojik kökenleri ve teşekkülü. İstanbul: Ötüken, 2013, 348 s,
6. Bayat F. Türk mitolojik sistemi (Ontolojik ve epistemolojik bağlamda Türk mitolojisi). Cilt: 1, Ankara: Ötüken, 2007, 380 s.
7. Beydili C. Türk mitolojisi. Ansiklopedik sözlük / Çeviren: Eren Ercan, Ankara: Yurt Kitap-Yayın, 2004, 637 s.
8. Bəydili C. Türk mifoloji obrazlar sistemi: Struktur və funksiya. Bakü: Mütərcim, 2007, 272 s.
9. Divanü Lüğat-it-Türk / Çeviren Besim Atalay. Cilt II. Ankara: Ankara Üniversitesi Basım Evi, 1999, 366 s.
10. Divanü Lüğat-it-Türk / Çeviren Besim Atalay. Cilt III. Ankara: Ankara Üniversitesi Basım Evi, 1999, 452 s.
11. Günay Ü., Güngör H. Başlangıclarından günümüze türklerin dini tarihi. Ankara: Berikan Yayınevi, 2015, 552 s.
12. Kafesoğlu İ. Eski türk dini.Ankara: Kültür Bakanlığı Yayınları, 1980, 67 s.
13. Kafesoğlu İ. Kutadgu bilig ve kültür tarihimizdeki yeri. İstanbul: Kültür Bakanlığı, 1980, 46 s.
14. Kafesoğlu İ. Türk milli kültürü. İstanbul: Ötüken, 1998, 466 s.
15. Niyazi M. Türk devlet felsefesi. İstanbul: Ötüken Neşriyat, 1996, 285 s.
16. Tanyu H. İslamlıktan önce türklerde tek Tanrı inancı. İstanbul: Boğaziçi Yayınları, 1986, 233 s.

ТЕНГРИ И ТОРА (TÖRƏ – ЗАКОН) В ПРОИЗВЕДЕНИИ «КУТАДГУ БИЛИГ» (« БЛАГОДАТНОЕ ЗНАНИЕ») ЮСИФА БАЛАСАГУНИ

Магомед М.МАМЕДОВ

РЕЗЮМЕ

Великий мыслитель и государственный деятель своего времени Юсуф Баласагуни в произведении «Кутадгу билиг» («Благодатное знание») выразил социально-общественные и философские взгляды древних тюрков, которые исходили из Торы (Закона), Тенгрианства, жизни и образа их мышления. Тенгри, известный в Тенгрианстве как создатель Вселенной, является единственным источником духовной силы тюркского общества.

В этом произведении Юсуф Баласагуни раскрыл административные и политические взгляды тюрков и показал общественно-политическую основу Тюркского государства. В произведении подчеркивается, что справедливость и представление прав народа зиждутся на Торе (Законе). В статье говорится, что, поскольку Тора – это божественный порядок, Тенгри одаривает Гутом // Кутом (счастьем) того, кто следует его порядку.

Статья на основе примеров, взятых из произведения, исследует правовые воззрения древних тюрков, которые восходят к их традициям.

Ключевые слова: Юсуф Баласагуни, Тенгри, Кут, мудрость, истина, счастье, спаведливость, святой

GOD AND MORALS IN YUSUF BALASAGUNI'S "KUTADGU BILIG"

Mahammad M.MAMMADOV

SUMMARY

Yusuf Balasaguni, thinker craftsman and statesman of his epoch, expressed the public-social and philosophical views of the ancient Turks, which came from their customs, Tengrism, lifestyle and way of thinking, in his work "Kutadgu Bilig". God, known as a creator of the universe in Tengrism, is the only source of moral strength of Turkish society.

By this work Yusuf Balasaguni revealed the political and administrative views of the Turks and introduced the socio-political foundation of the Turkish state. The work emphasizes that justice is the basis of the Morals (Law) and represents the rights of the nation. The article reflects that, as the Morals are a divine order, God gives Gut/Kut (happiness, bliss) to a human in accordance with his order. The article examines the legal views of the ancient Turks, came from the customs and traditions, on the basis of examples from the work.

Keywords: Yusuf Balasaguni, Tengry (God), Kut, wisdom, truth, happiness, justice, sacral